# ƏSRİN İMAMI, YAXUD AY İŞIĞINDA MƏKTUB

## (dini-tarixi araşdırma)

*(Əvvəli 12-ci səhifədə)*

Verdiyi yuxulu sualların cavablarını da elə özü verirdi: - Qılınc cüzəmə tutuldu... atımı oğurladılar... arvadım da qoşulub qaçdı.

Amma Xəlifə Mövlud ibn Yasər yalan deyirdi. Arvadı Hüsniyyə Kamal özgə kişisinə qoşulub, qaçmamışdı. Çünki Bağdadda o tanınmış, əsilli-nəsilli kişilərdən birinin - tacir Məsud ibn Səhli nəslindən idi...

Gün əyiləndə Fərat çayının sahillərini qol-boyun edən qara, üstündə tünd gözləri görünən, əyninə ətəyi yer süpürən paltar geyinmiş birisi göründü. O, şabalıdı, gərilmiş atın üstündə əyləşib, kimisə gözləyirdi. On addımlıqda Əl-Farus kəndi idi. Çox qədim tarixi olan bu kəndin üzü qibləyə salınmış üzüm və əncir bağları... sıx budaqları ilə çayın sahillərini gözəlləşdirən zeytunluqlar Əl-Farus yaşayış məntəqəsində məskən salan müsəlmanlara məxsus yaraşığın və gözəlliyin bir parçası idi. Kəndin tən ortasından keçən və bu kəndi iki hissəyə ayıran Fərat keçidi deyilən yolun körpüyə yaxın hissəsində İmam Əliyyən-Nəğinin xəstəliyi bürüdüyünə görə kənddə adamlar seyrəlmişdi.

...Vatikan başçısı II Adrian Bağdaddan öncə, Gəncədə dayanmağı istədi. Onunla yola çıxan dosətları, kardinallar Qara Dənizi keçib, gürcülərin Poti limanında ərazi sayıb-seçilən Qori adlı məşhur bir din xadiminin qonağı oldu. Poti limanın da "Bütün qütbləri xaçı" kimi tanınan müqəddəs Qori Ata II Adriandan Gəncə yolunun xəritəsini istədi və Vatikandan gətirdiyi xəritə ilə tutuşdurdu, sübh açılanadək dua edib, Allahdan etdiyi səfərin sonunadək salamat qalmağı istədi. Gün üzü açılanda Qori Ata gürcü süvarilərilə II Adriani və onu qoruyan kiçik dəstəni xeyir-dua altında Gəncəyədək ötürdü.

Vatikan arxivində saxlanılan sənədlərin birində II Adrianini müşayiət edən və əslən Fələstin ərəblərindən olan Əs-Səat adlı (Əssəat) səyyah "Mənim şəxsi qeydlərim və düşüncələrim" əsərində yazır: "...Biz on gündən sonra Potidən Gəncəyə çatdıq. Gəncənin Qala qapılarının önündə bizi Şeyx Mir Möhsün Seyid Allahyar oğlu adlı bir tanınmış və məşhur müsəlman din xadimi qarıladı. Aman Allah.. bu iki din xadimi necə görüşdülər, biri-birilərinə necə təzim edib, qucaqlaşdılar. Onların görüşü başqa aləm idi. Şeyx Gəncə qapıları önündə Vatikan başçısına üstü qızıldan işlənmiş qədim bir Quran kitabı bağışladı. II Adrian bağışlanmış Quranı bağrına basıb, bir müddət ürəyinin başında saxladı. Sonra müqəddəs kitabı başı üstünə qaldırıb, Gəncə torpağına ayaq basdı..."

Təsvirlərdə qeyd olunur ki, II Adrianın gözəl, nurlu sifəti, tünd maviyə çalan gözləri, işıqlı, ağappaq, üstündə qiymətli daşqaşları olan ətəkləri yer süpürən ağ libası onu bir az da müdrik göstərirdi.

Səyyah davam edərək, yazır: "...Vatikanın başçısı Gəncəyə böyük həvəs və ilhamla girmişdi. Ancaq Gəncə camaatı, varlılar, bəylər... və özlərini xan kimi aparanlar, tanınmış digər din xadimləri II Adrianın pişvazına çıxmışdılar. Bu ona çox pis təsir etmişdi.

Məsələ öncə Şeyx Möhsün Seyid Allahyar oğluna pis təsir etmişdi. O, ətrafında baş verənləri, edilən hörmətsizlikləri anlaya bilmədi.

II Adrian Şeyxin sifətindəki nigarançılıqdan onra dedi: - Şeyx həzrətləri bilsin ki, bütün bunlar mənim üçün adi bir işdir, darıxmağa lüzum yoxdur. Mən ziyarətimi başa vurub, sübh tezdən yola çıxıram. Yolumuz uzaqdır... Aralığa ani də olsa sükut çökdü. Sonra Şeyx soruşdu: Əlahəzət Adrian mənimlə çörəl kəsmək istəmir? Cavabında II Adrian dedi: - müsəlman süfrəsində çörək kəsmək mənim üçün əziz bir nemət olardı... Hər iki din xadimi Abuzər Şamının (bu şamlar sübhədək yanar, lakin az əriyər) işığında gecəni sübhədək söhbət edib, çörək kəsdilər. Süfrə başında Gəncə alilərindən heç kəs yox idi. Şeyx özü idi, bir də iki oğlu...

Səhər açılar-açılmaz, xoruzun birinci banı II Adrianı Şeyxlə qoşalaşıb, Gəncədəki İmamzadənin ziyarətinə çıxdı...

Qırmızı kərpicləri uçub, dağılmış, ensiz cığırlarla dövlətlənmiş, rəngi bilinməz hala düşən ziyarətgah qapıları bir güclü küləyə bənd idi. Şahzadə İbrahimin qəbrinin bir tərəfi çöküb, batmış, torpağın altına girmişdi. Qəbrin ətrafını ot-ələf basmışdı.

Amma qəbrin üstündəki göyərçinlərin sayı bilinmirdi. Bir yandan qovurıdular, o biri yandan uçub qonurdular. Qırmızı kərpici qəbiristan hasarlarının dibində əkilniş qədim armud ağaclarına "İmam ağacları" deyirdilər. Həm də maraqlı idi ki, Şahzadə İbrahimin qəbrinə isti yay aylarında kölgə salan armud ağacları tək olanda bar verməzdi, yanardı. Cüt əkiləndən sonra acaq həm boy atardı, həm də bar verərdi... Bir az aralıda isə nəzir qutusu qoyulmuşdur.

Uçulub, dağılmış imam övladının qəbrinin ağır və miskin görünüşü II Andriana çox pis təsir etmişdi. Şeyx bunu hiss etdiyindən heç nəyin üstünü vurmadı.

...Şeyx həsrətləri qabaqda gedirdi. Arxada isə II Adrian, onun kardinal dostu Felano, sonra süvarilər idi... Şahzadə İbrahimin qəbri köhnə, dağılmış qəbrlərin içərisində itib-batır, görünməz olurdu. Şeyx bir də onda gördü ki, sir-sifəti al qan içərisində olan birisi qəbrə doğru qaçır, ardınca da, hündür, əlində taxta parçası tutmuş bir kişi söyə-söyə dabanqırma irəli şığıyırdı. Qəbrə çatar-çatmaz həmin kişi əlindəki taxta parçası ilə, sifəti qana bələnmiş kişinin başına tutuzdurdu, qışqırdı:

- Köpəyin oğlu, sənin nə həddin var, cibimə girəsən, pulumu oğurlayasan.

Kişi isə, yalvara-yalvara dizlərini yerə qoydu.

- Bu qəbrə and olsun - dedi, mən oğru deyiləm, kişinin ayaqlarını qucaqladı. Mən - dedi, heç nə görməmişəm, Ağa Nemət, görməmişəm.

Adına Ağa Nemət deyilən kişi isə əlindəki taxta parçası ilə qana bələnmiş adamı döyəcləməklə məşğul idi.

- Köpəy oğlu - qışqırdı, sən - dedi, hələ bilmirsən, Ağa Nemət kimdir?..

Döyülmüşə, üz-gözü didilib, tökülmüş, qana bələnmiş kişi, Şahzadə İbrahimin qəbri üstündə dizlərini büküb, qəbrə doğru əyildi. Başını qəbrin üstünə qoyub, hönkürtü vurdu:

- Bu zülmü heç kəs götürməz. Allahım. Zalımların əlində giriftar olduq. Bu zəncirlərdən bizi xilas et İlahi.

Adına Ağa Nemət deyilən və ağzı köpüklənə-köpüklənə danışan kişi əlindəki taxta parçasını istədi bir də qaldırıb vursun, Şeyx irəli çıxdı, onun güclü və damarları çıxmış qolundan yapışdı:

- Ağa Nemət - dedi, səbrin olsun. Qonağımız var. Qürbət eldən gəlib-əlavə elədi və kardinalları və II Adrianı nişan verdi.

Ağa Nemət əl saxladı. Bozarmış sifətini turşudub, pıçıldadı:

- Neynim var - əlavə elədi. Ya Şeyx - əlavə elədi, bu döydüyüm adam müsəlman deyil. Özgə nişanəsi var. Nəyinə gərəkdir...

- Səbrin olsun. Bütün bunlar üçün divan var, cəza var... Allah var, Quran var... Din var, iman var, kişi - Şeyx hiddətləndi. Ağa Nemət əyilib, Şeyxə pıçıldadı: - Şeyx-dedi, sən bu bizdən olmayanları az müdafiə et. Allah onsuz da onu vurub. Özü belə məsləhət görüb. Təpiyi vur, qoy müsəlmanın qarşısında mələsin. Sən üzünü bizə tərəf çevir - əlavə elədi. Bir də, sən bu əyin-başlarında Allahın xoşu gəlməyən işarələri (xaça işarədir) gəzdirən, ruzusuz, çörəksiz adamları bu torpağa az gətir.

Şeyx dayandı, daha danışmadı. Bütün deyilənlər arıq, amma çevikliyilə fərqlənən qıvrımsaq süvari tərcümə edirdi.

- Sən Allahın elçisisən, ya Şeyx - II Adrian dedi və ona bir az toxtaqlıq verdi. Belə məsələləri yola vermək sənin üçün çətin olmaz - əlavə elədi.

Şeyx Həzrətləri isə dinmədi. Gün əyiləndə günorta namazının azanı veriləndə Şahzadə İbrahimin qəbrinin ətrafında adamlar görünməyə başladı. Amma bir az bundan əvvəl başını qəbrin üstünə qoyan və Ağa Nemətin hücumundan qorunmaq istəyən yaşlı kişi tərpənmədi, başını qaldırmadı. Qəbrin üstündəki qan ləkələri ətrafdakıları çaşdırdı. Yığışıb, ehmalca sir-sifəti qana bələnmiş kişini qəbrdən qoparıb, ayırdılar. O, keçinmişdi...

Vatikan başçısı II Adrian ölən kişi üçün təəssüf etdi. Sonra gördü ki, bir dəstə kənd adamı ağlaya-ağlaya, qışqıra-qışqıra ölən kişiyə sarı gəlir. Kişinin arvadı, uşaqları qışqırırdı. Şeyx həyəcanını gizlədə bilmədi. Çünki bütün olanlar onun gözü qarşısında baş vermişdiş...

Kişinin boynundan qırılıb açıq sinəsinə düşmüş xaçına diqqət edən Adrianın sifəti tutuldu. Əyilib bir tərəfi qırılmış xaçı ehmalca götürdü. Şeyx Həzrətlərinə tərəf uzatdı.

- Götür, bunu, Ya Şeyx... - dedi. Sən gördünmü bu ölən xristian nə qışqırırdı? - soruşdu.

- Bilirəm, Adrian Həzrətləri. - Şeyx dedi. O, Antakiya... Antakiya... qışqırırdı. O, Şahzadə İbrahimə sığınmağa gəlirdi... Onu öldürən nemət-dediyin adamın taleyi daha ağır olacaq. Allah onu iki böləcək, ya Şeyx... - Adrian hiddətləndi. Şeyx isə hələ də gözünün yaşı ilə əlləşirdi... Hələ qulaqlarda onun səsi qalmışdı: "...Ey Antakiya əhli... Siz ey elçilər!.. Həqiqətən mən Sizin rəbbinizə iman gətirdim. Məni eşidin. İman gətirməyimə şəhid olun!"

Sonra II Adrian Antakiya haqqında danışdı.

- Sən - dedi, Ya Şeyx, Həbib Nəccar haqqında eşitmisənmi? O, kitabı Şəmiddin Məhəmməd Dəməşqii yazıb. O, yazır ki, Həbib şəhid olduqdan sonra vurulmuş başını sol əliylə yuxarı qaldırdı. Sonra sağ əlinə alaraq, üç gün, üç gecə onun bədəni Antakiyanın küçə və balzarlarında gəzib, dolaşdı. "Mən Cənnətə getdim" - qışqırırdı. (Qeyd: Antakiya Aralıq dənizinin 22 kilometrliyində yerləşir. Oradakı Nəccar adlı dağa isə adamlar bu gün sitayiş edirlər).

...Qəbiristanlığın ətrafında yaşayan adamlar Şeyxin gəlişinə küçəyə çıxdılar. Biri samovar gətirdi, biri tövləsindəki son erkəyini çəkib, onun ayaqları altında kəsmək istədi... Şeyx imkan vermədi.

- Qonağım var - dedi. Adrianı göstərdi - Vatikandan, çox uzaqdan ziyarətə gəlib. Siz süfrə açın. Çay tədarükü görün...

Səyyah Əssəat yazır: "...Bütün bu möcüzəli günlərimiz Gəncədə baş verdi. Mən bu şəhərin göylə kəsişən xətlərini (Mən bunu hələlik aça bilmədim - R.N.) aça bilmədiyim üçün geniş təfsilat verə bilmirəm. Qəbr üstündə vəfat edən adamı kənd adamları götürüb, məscidə apardılar. Gördüm ki, məscidin ayağından kiçik bir çay keçir...

Axşam daha bir ağır hadisə baş verdi. II Adrianın yanında gələn iki süvari dostumuz hansısa ağır bir xəstəlikdən... vəfat etdi. Amma sonradan məlum oldu ki, onların hər ikisini boğarar, öldürmüşdülər... Bu çətin bir məsələ idi. Yerli adamlar Şeyxə etiraz etdilər ki, ölənlər xaçpərəst olduqları üçün müsəlman qəbiristanlığında basdırıla bilməz. Belə olanda Şeyx Həzrətləri onlara belə bir sual verdi:

- Yaxşı, mən Sizi anladım - dedi. Üzünü aranı qızışdıran daha yaşlı nəslin üzvlərinə tutdu. - Siz heç bilirsiz, Bəqi qəbiristanlığında seyidlərin, üləmaların, tanınmış müsəlman din xadimlərinin, imam övladlarının məzarları yanında nə qədər xristian-xaçpərəst alimlər, dövlət adamları dəfn olunub. Aralığa sakitlik çökdü... Onda II Adrian müsəlmanların sübh namazına hazırlaşırdı... Bunu görən camaat lap məəttəl qaldılar. Sübh namazında Şeyx Həzrətlərinin arxasında Vatikan başçısı II Adriandayanıb. "Allahu Əkbər" - çağırırdı... Və namazdan sonra gördülər ki, II Adrian dizlərini qoşa armud ağacının yanında yerə qoyub, dayandı. "Ya Allah" - deyib, müsəlman aləminin V İmamı Məhəmməd Bağır Əleyhissəlamın oğlu Şahzadə İbrahimin məzarına doğru süründü...

II Adrian alnını məzarın üstünə qoyub, qollarını açıb, onu qucaqladı. O, ağlayırdı. Nə isə deyə-deyə ağlayırdı. Bu mənzərə bu günədək bizim din tariximizdə sirr olaraq qalır...

O, dualarından sonra, məzardan ayrıldı. Cibindən yenidən bir ovuc qızıl pul çıxarıb, Şeyx həzrətlərinə verdi: - Siz dedi, bu məzarı bərpa edin, düzəldin. Güman edirəm, Allah günahımızdan keçər...

Vatikandan Gəncəyə ziyarətə gələn II Adrian Şahzadə İbrahiminin məzarından sonra cibindən çıxartdığı kiçik kisənin ipini çəkib, mirvari dənələrini ovcuna sıxdı və üzünü Şeyxə tutdu:

- Şeyx həzrətləri, götür bu pulları - dedi. Sən çox halal adamsan - əlavə etdi. Vaxt, zaman olar, Allah qismət edər, yenə bu yerlərə gələrəm. Şahzadənin qəbrini düzəldin. Mən bura "İmamzadə" adını qoyuram. O, mənim nəslimdəndir. Qan qohumumdur.

II Adrian bütün bunlardan sonra, toxtayıb, nəfəsini dərdi. Siz - üzünü yenidən Şeyxin ətrafındalı adamlara tutdu. Müsəlman dünyasının beşinci İmamı Məhəmməd Bağır Əleyhissəlamı, onun oğlu Şahzadə İbrahimi yaxşı tanımırsız. Çox təəssüflənirəm. Onun bu yerlərə gəlməsi və bu məkanda vəfat etməsi böyük məsələdir, böyük bir xəbərdir... Allah onu bu torpağa müjdə göndərmişdi. Heç kəsin gözləmədiyi bir anda göy guruldadı. Yer-yurd silkələndi. Gəncədə yağış başladı.

II Adrianın "...Böyük bir xəbərdir" deməsinin nəyə işarə olduğunu heç kəs bilmədi... heç. Şeyx Həzrətləri də bilmədi. Amma Adrianın Şahzadə İbrahimlə qohumluq əlaqələri onu tamam çaşdırdı.

Şahzadə İbrahimin Gəncəyə gəlməsi və burada vəfat edərək, dəfn olunması əsrlər boyudur ki, sirr olaraq qalır. Vatikan başçısının Gəncə ziyarəti də müəmmalı olaraq qalırdı. O, Bakıya dönmədi. Yola çıxarkən dəfn etdiyi iki süvarinin başı üstündə dayanıb, onların hər ikisinə dua oxudu. Süvarilərdən biri Şahzadə İbrahimin sol cinahında, o biri isə sağ ciahında idi.

Dünya xristianlarının başçısı Vatikan rəhbəri II Adrian özündən ixtiyarsız, bir neçə dəfə başını Şahzadə İbrahimin məzarı üstünə qoyub, hönkürtü vurdu. Onun səsi, qışqırığı, harayı ətrafı lərzəyə salmışdı.

- Siz çox ağlayırsız Həzrəti Adrian-Şeyx əlini onun çiyninə qoydu.

- Şahzadəni Siz gəncəlilər əzabla öldürüb, ya Şeyx - Adrian pıçıldadı. Şeyx dayandı. Neçə vaxt idi içində baş qaldıran sorğuya cavab axtarırdı. Lap astadan soruşdu:

- Bu işi əsl gəncəlilər etməz Adrian həzrətləri?

- Mən Adrianam - dedi. Bu yerlərə Allahın hökmü ilə gəlmişəm. Daha məndən heç nə soruşma Ya Şeyx - əlavə elədi.

- Sizin qəzəbiniz ağır olur, Adrian həzrətləri - Şeyx dayandı.

Sən bilirsənmi Şahzadə İbrahim nə əzabla öldürülüb? - soruşdu. Özü də o tək olmayıb. Bacısı Xədicə ilə baş götürüb Gəncəyə sığınmaq üçün gəliblər.

Amma Yezidin o vaxt qan qohumları... Şeyx İsa ibn Yezidin fitvası ilə öldürülüblər.

*(Davamı var)*